# Seneqal Respublikasının Prezidenti zati-aliləri cənab Bassiru Diomaye Fayeyə

Hörmətli cənab Prezident.

Seneqal Respublikasının Prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, dost Seneqal xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

Azərbaycan-Seneqal dostluq əlaqələri xoş ənənələrə malikdir. Ölkələrimizin həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar, xüsusilə də BMT və Qoşulmama Hərəkatı çərçivəsində səmərəli əməkdaşlığı məmnunluq doğurur.

Müasir dövrdə hələ də davam edən neokolonializm siyasətinin aradan qaldırılması istiqamətində Sizin apardığınız qətiyyətli fəaliyyət təqdirəlayiqdir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə təsis olunmuş Bakı Təşəbbüs Qrupuna dəstəyiniz kolonializmə və onun yeni formalarına qarşı mübarizənin aparılması, müstəmləkəçilikdən əziyyət çəkən xalqların haqlarının qorunması və onların təbii hüquqlarının təmin edilməsi naminə səylərinizin bariz təzahürüdür.

İnanıram ki, Azərbaycan ilə Seneqal arasında münasibətlərin xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq məcrasında inkişafı, çoxtərəfli təsisatlarda səmərəli əməkdaşlığımızın müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstərəcəyik.

Bu xoş fürsətdən istifadə edərək Seneqal Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə də Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 aprel 2024-cü il*

Azərbaycan.- 2024.- 5 aprel, № 70.- S.1.